Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# İslam Səfərli zirvəsi

Böyük şair İslam Səfərlinin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı-2023

Tərtibçi: Nərmin Qədəmullazadə

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Məmmədli Ruhiyyə

**İslam Səfərli zirvəsi -** Böyük şair İslam Səfərlinin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Qədəmullazadə; ix.red. və burax.məsul Ş.Qəmbərova;F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-44s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023.**

# Giriş

Hər bir sənətkar öz yaradıcılığı ilə özünə abidə qoyur. Belə abidələrdən biridə İslam Səfərli abidəsidir. İslam Səfərlinin ilk şeiri ‘‘Ədəbiyyat qazeti‘‘ndə çap olunanda cəmi 17 yaşı vardı. İslam Səfərlinin yaradıcılığında Azərbaycanın poetik xəritəsi canlandırılmışdır. Şairin yaradıcılığında Bakıya və Xəzərə həsr olunmuş şeirlər geniş yer tutur. İslam Səfərlinin ‘‘Bakı sabahın xeyir‘‘ şeiri ritminə və ahənginə görə asanlıqla mahnıya çevrilmişdir. Şairin ürəkdən süzülüb gələn təkrarsız şeirlərinə bir çox görkəmli sənətkarlarımız, sevimli müğənnilərimiz təkrar-təkrar müraciət ediblər. İslam Səfərli tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. O, A.S. Puşkin, M.M. Svetlov, S. Marşak, M. Kərim, M. Tursunzadə, K.Koladze, Y. Dolmatovski və b. kimi tanınmış sənətkarların əsərlərindən müvəffəqiyyətlə tərcümələr etmişdir. İslam Səfərlinin adını əbədiləşdirmək məqsədi ilə Xəzər dənizində üzən gəmilərin birinə "İslam Səfərli" adı verilib, Bakının mərkəzi küçələrindən biri şairin adını daşıyır, Bakıda yaşadığı binaya (Həsən Seyidbəyli, 30) onun barelyefi-xatirə lövhəsi vurulub, Naxçıvanda oxuduğu 1 nömrəli məktəbə onun adı verilib. Bu il İslam Səfərlinin 100 yaşı tamam olur. Bununla bağlı olaraq mədəniyyət ocaqlarında bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Bizdə F.Köçərli adına Uşaq Kitabxanasının Elmi metodika şöbəsi olaraq İslam Səfərlidən bəhs edən bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsaitin I hissəsi şairin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə dəyərli şairimizin xatirəsini əbədiləşdirmək məqsədi ilə kitabxanalarda keçirilən yubiley tədbirlərdən söhbət açılır.

## İslam Səfərlinin həyat və yaradıcılığı

İslam Səfərli 12 fevral 1923-cü ildə Naxçıvan MSSR-in Babək rayonunun Şəkərabad kəndində dünyaya göz açmışdır. Naxçıvandakı 1 saylı məktəbi (hazırda məktəb şairin adını daşıyır) bitirdikdən sonra könüllü olaraq Böyük Vətən müharibəsində iştirak etmişdir. İkinci Dünya müharibəsi başa çatandan sonra ali təhsilini davam etdirən İslam Səfərli Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmiş, “Şərq qapısı”, “Azərbaycan gəncləri” və “Ədəbiyyat qəzeti”ndə işləmiş, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, ədəbi-dram verilişləri şöbəsinin müdiri olmuş, 1960-1973-cü illərdə isə Azərbaycan Yazıçılar İttifaqının poeziya və dramaturgiya bölməsində çalışmışdır.

İslam Səfərli oçerk, novella, libretto və kinossenari, məqalələr müəllifi kimi də tanınmışdır. Onun "İki qardaş" (1950), "Badamlı kəndinin qızı" (1955) oçerkləri, "Təzə qəsəbədə gülüş", "Məzhəkli itki" (1973) novellaları, "İki könül bir olanda" (1947) balet-librettosu, "Şərqin qalibləri" (1960), "Bir stəkan çay" (1971) kinossenariləri və xeyli sayda məqalələri dövrünün nəbzini tutmaq baxımından çox əhəmiyyətlidir. Şairin "Bakı, sabahın xeyir", "Zərif gülüşlüm", "Bir könül sındırmışam", "Qonaq gəl bizə", "Bakılı qız", "Nə vaxta qaldı", "Ana", "Ay qaşı, gözü qara qız", "Ağ xalatlı həkimlər", "Gəncliyimi gəzirəm", "Aylı gecələr" və s. bu kimi yüzlərlə mahnısı dillər əzbəri olmuş, klassikaya çevrilmiş və indinin özündə də sevilə-sevilə dinlənilir. İslam Səfərlinin 18 kitabı işıq üzü görüb. İslam Səfərli dramaturq kimi də böyük uğurlar qazanmışdır. "Göz

həkimi", "Ana ürəyi", "Yol ayrıcı", "Xeyir və Şər", "Dədəgünəş əfsanəsi" və s. müxtəlif vaxtlarda, ayrı-ayrı bölgələrdə tamaşaya qoyulmuş, tamaşaçı rəğbəti qazanmışdır. Onu insanlara ən çox sevdirən isə dərin duyğularla yazdığı şeirləri olur. Əsasən, heca vəznində yazan görkəmli şair, hətta "Heca vəznliyəm mən" adlı ayrıca bir şeirində bu vəznə sədaqətini, məftunluğunu bəyan edir. "Bağrıma basmışam Azərbaycanı – Araz bir qolumdur, Kür bir qolumdur", – deyən İslam Səfərli Azərbaycanı və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanı tükənməz ilhamla tərənnüm edib. Azərbaycan İslam Səfərli şeirinin ana mövzusu olmaqla, onun sönməz Vətən eşqinin möhtəşəm bir nümunəsidir:

Əlvan naxışlısan, doğma məkanım,
Sənə qurban canım, Azərbaycanım!

Naxçıvan elinin hər qarışı nəğməkar şairin yaradıcılığında öz bədii təsvirini tapıb. Bu vurğunluğu biz "Ey axarlı, ey baxarlı, ey gülzarlı Naxçıvanım", "İki Culfa", "Əbədiyyət nəğməsi", "Araz burulub keçir", "Tanış gözlər", "Gəlmişəm", "Batabat bulağı", "Qızlar bulağı", "Badamlı", "Görüş yeri", "Naxçıvanın duzu, qızı, qarpızı..." , "Həsrət nəğməsi", "Şərur düzləri", "Çex qızının məhəbbəti", "Qoşa söyüd", "Ordubad" və digər şeir və poemalarında aydın görürük. Şair qələmə aldığı əsərlərində "Şeirin, sözün Vətəni, xoş baharlı Naxçıvanım" deyərək ayın seyrə gəldiyi Qızlar bulağını, "Narzan" kimi qiymətli olan "Badamlı"sını, yurdumuzun gözəlliklərinin bir parçası olan Xal-xal meşəsini, Naxçıvanın dərdlərə dərman duzunu, Araz dərdini,

bu diyarın göy tarlalı Şərurunu, dalğalarla qucaqlaşan Arpaçayını, “böyük aləm” dediyi doğulduğu Şəkərabad kəndinin təbiətini, Batabatın qəlb ovsunlayan gözəlliyini, Əlincənin əzəmətini, Bəhruz Kəngərli kimi sənətkarlarını, Koroğlu, Babək kimi qəhrəman oğullarını, xumargözlü qızlarını yüksək poetik səviyyədə, orijinal bədii vasitələrlə tərənnüm edib. Onun “Naxçıvanım”şeiri isə doğma diyarımıza həsr edilmiş dolğun, gözəl poetik nümunə kimi xoş təsir bağışlayır. Bu şeirdə şairin Naxçıvan torpağının vurğunu olduğunu hər bəndin hər misrasında hiss edirik:

Çöllərindən keçən mənəm,
Söz qoşmamış keçən mənəm,
Sularından içən mənəm,
Mənim barlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

...Gör nə çalır könül simi:
-Şeirə verdim mən eşqimi.
Mirzə Cəlil, Bəhruz kimi,
Sənətkarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Şair təkcə qədim diyarı Naxçıvanı yox, bütövlükdə, doğma Vətənimizin hər bir qarışını ürəkdən sevib, yaradıcılığında ölkəmizin ayrı-ayrı guşələrini məhəbbətlə təsvir edib, indi də sevilə-sevilə oxunan şeir dünyası formalaşdırıb. Batabat yaylağı haqqında yazdığı şeirdə isə Batabatı özünəməxsus şəkildə təsvir edərək oxucuda da həmin məkan haqqında heyranedici təsəvvür yaradır:

Bulaqların bir səmtədir axarı,
Salvartının xoş görünür baxarı,
Biçənəkdən at səyirdib yuxarı
Yalmanına yata-yata gəlmişəm,
Mərcangözlü Batabata gəlmişəm.

Onun gözəl lirik şeirləri ilə yanaşı,’’Sınaq gecəsi’’,’’Yaralı nəğmə’’,’’Birinci katib’’,” Dəfinə’’ və s. poemaları da olmuşdur. Şairin "Bakı, sabahın xeyir", "Zərif gülüşlüm", "Bir könül sındırmışam", "Qonaq gəl bizə", "Bakılı qız", "Nə vaxta qaldı", "Ana", "Ay qaşı, gözü qara qız", "Ağ xalatlı həkimlər", "Gəncliyimi gəzirəm", "Aylı gecələr" və s. bu kimi yüzlərlə mahnısı dillər əzbəri olmuş, klassikaya çevrilmiş və indinin özündə də sevilə-sevilə dinlənilir. Şair dramaturgiya sahəsində də qələmini sınayıb, bir-birindən gözəl nümunələr yaradıb. Onun “Dar ağacı”, “Ana ürəyi”, “Yol ayrıcında”, “Yadigar”, “Xeyir və şər” dramları, “Qayın arvadı, xayın arvadı” komediyası və bir çox radio pyesləri indi də sevilən əsərlər sırasındadır. “Göz həkimi” pyesi isə ona dramaturq kimi ən böyük şöhrəti qazandırıb. Onun pyesləri dəfələrlə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulub. İslam Səfərli uzunsürən xəstəlikdən sonra, 1974-cü ildə həyatdan çox erkən köçməsinə baxmayaraq, işıqlı dünyada öz izini qoyan



sənətkarlarımızdan biridir. Onun qələmə aldığı aşağıdakı misralar bunu bir daha təsdiq edir:

Günlər keçir birəm-birəm,
Bir uğurlu yol gedirəm.
Yurdumuzu vəsf edirəm
Əldə qələm, dizdə varaq –
Mənə qalan bu olacaq.

**Sərgi ətrafında oxucularla söhbət**

Görkəmli şairimiz İslam Səfərlinin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Bu şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq və eyni zamanda oxucularda mütaliə vərdişi aşılamaq məqsədi daşıyır. İslam Səfərlinin 100 illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisinin təşkili məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilir:

“Unudulmayan şair İslam Səfərli”, “Nəğmələrdə yaşayan şair ömrü”, “İslam Səfərli zirvəsi”, “Ədəbiyyata İslam Səfərli baxışı”, “Nəğmədən yaranan poeziya”, “Qəlbi Araz olan şair”, “Təbiətə, gözəlliyə vurğun şair”, “Mahnı yelkəninə çevrilən şair” və s. verilə bilər

## Kitab sərgisi

İslam Səfərlinin *“Seçilmiş əsərləri”*ndə şairin poetik yaradıcılığının bəlli bir qismi toplanmışdır. Kitab 2005-ci ildə “Lider Nəşriyyat” evində nəşr olunmuşdur. 224 səhifədən ibarət olan kitabda lirik duyğular, axıcılıq və poetik gözəllik bütövlükdə bu kitabdakı şeirlərə xas olan bir cəhətdir.




*“Pıçıldaşın, ləpələr”* kitabı Azərbaycan Respublikasının Prezdenti İlham Əliyevin “İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında” 6 avqust 2013-cü il tarixli sərəncamına əsasən nəşr olunmuşdur. 570 səhifəlik kitab “Renessans” nəşr evində çap edilmişdir. Kitabda şairin müxtəlif illərdə yazdığı şeir və poemalarından nümunələr toplanmışdır. “Pıçıldaşın Ləpələr” adlı kitabının forzasında şairin oğlu İlham









Səfərlinin “Bakı sabahın xeyir!” adlı əsərindən istifadə edilmişdir.

Bunlarla yanaşı, İslam Səfərlinin 1965-ci ildə nəşr olunan “Qoşa söyüd” kitabı, 1967-ci ildə nəşr olunan “Torpağın ətri”, 1973-cü ildə “Seçilmiş əsərləri” və 1978-ci ildə çap olunan “Əbədi beşik” kitabları oxucular tərəfindən sevinclə qarşılanmışdır.

İslam Səfərli yaradıcılığını oxuculara tanıtmaq üçün kitabxanada şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Öncədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. “İslam Səfərli zirvəsi” adlı şeir müsabiqəsində münsiflər və qonaqlar öz yerini alırlar. İlk olaraq kitabxanaçı səhnəyə gələrək münsiflər və qonaqları salamlayır, iştirakçılara isə uğurlar arzulayır.

Kitabxanaçı: İslam Səfərli ədəbi zirvələrdən biridir. Onun haqqında çox yazılıb və bundan sonra da yazılacaqdır. Gəlin biz də bu saflıqdan bəhrələnək. İndi isə iştirakçıları səhnəyə dəvət edək.

**I iştirakçı**: *Təhsil illəri*

Ey dost,sən Bakıya təzə gələndə,

İpləri ağ yundan corab geyərdin.

Uzanıb yerinə, əlində dəftər,

Payız gecələri mürgüləyərdin.....

**II iştirakçı:** *Onun istəyi*

-Söylə mənə, söylə mənə, uçuq səngər,

Hansı igid itirmişdir bu çantanı?

İndi harda ömür sürür həmin əsgər,

De, hardadır Vətənimin qəhramanı?.....

**III iştirakçı:** *Xatirə*

Döyüş günləriydi... Axşam qabağı

Qəflətən döşümdən aldım bir yara

Yıxıldım, boyadı qanım torpağı,

Yerlər duman idi, üfüqlər qara.

**IV iştirakçı:** *Ömür Yolları*

Əqrəblər fırlanır.... əriyir gecə,

Qəlbim həkk olunur ağ varaqlara.

Ömrümdən bir yarpaq dərib gizlincə,

Bu gündə çəkilir lap uzaqlara.

**V iştirakçı: :** *Naxçıvanım*

Çöllərindən keçən mənəm,

Söz qoşmamış keçəmmərəm,

Sularından içən mənəm,

Mənim barlı Naxçıvanım,

Xoş baharlı Naxçıvanım...

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

**Görkəmli şəxsiyyətlərin İslam Səfərli haqqında söylədikləri fikirlər:**

İslam Səfərli Azərbaycan şeirinin Xəzər silsiləsini yaratmışdır. Onun şeirlərində Xəzərin özünəməxsus poetik obrazı canlandırılmışdır.

**İsa Həbibbəyli,**
*akademik*

İslam Səfərlinin poeziyasında Xəzərin ləpələri pıçıldaşır, müasir kəndin və şəhərin müxtəlif təbiətli adamları Vətən də, onun təbiəti də tərənnüm olunur. İslam Səfərlinin tərənnümündə tam bir poeziyadır, incədir, xəfifdir, gözəldir.

**Əkbər Ağayev,**
*Professor*

Qardaşım əsl vətəndaş idi. Elin-obanın dərdini çəkmədən, dara düşənə, ehtiyacı olana kömək etməkdən zövq alardı.

**Hidayət Səfərli,**
*Əməkdar jurnalist*

## İslam Səfərlinin sənətkarlara həsr etdiyi poeziyası

İslam Səfərli şeirlərinin mövzusu rəngarəngdir, bu şeirlər onun üçün mənəvi ehtiyac və könül çırpıntılarının ifadəsidir. Bu şeirlərdə elinə, obasına, xalqına olan məhəbbət obrazlılıq, dil səlistliyi, poetik ifadə tərzi və şeir üçün lazım olan nə varsa öz əksini tapmışdır. Onun şeirləri o qədər yığcam, düşünülmüş, sadə bir dildə yazılmışdır ki, sanki bir misranı çıxarsan bütün gözəlliyə xələl gətirə bilərsən. Çünki bu şeirlər axıcılığı, sözlərin düzümü bir-biri ilə vəhdət təşkil edir ki, elə zəcirvari bağlıdır ki, birini götürsən digərləri öz qüvvəsini itirəcəkdir. Bu baxımdan onun təkrarsız nəğmələri haqqında danışmamaq mümkün deyil. Janr baxımından şeirlərini ənənəvi poetik formalarının yaradıcı şəkildə davam etdirilməsi əsasında yazmış İslam Səfərlinin yaradıcılığında qoşma və gəraylılar çoxluq təşkil edir. Şairin "Gəlmişəm", "Qalıbdır", "Qonağıyam", "Dağlar" və sair şeirləri qoşma janrının yüksək tələblərinə tam cavab verir. Şairin "Görüşəndə", "Gəlin daş", "Mingəçevir dənizində", "Bir olanda" şeirləri yeni dövr Azərbaycan gəraylısının yaxşı nümunələridir. Qoşma və gəraylı formasında yazılmış poetik nümunələr İslam Səfərlinin şeirlərində xəlqilik düşüncəsini daha da dərinləşdirmişdir.

İslam Səfərlinin bir çox şeirləri ballada janrının ən yaxşı nümunələri sayıla bilər. "Gilan şəhəri haqqında ballada" dan başqa, şairin "İtkin şahin", "Bayram töhfəsi", "Ömür yolları", "Onüçlər", "İlin son gecəsi" və sair şeirləri də ballada janrında yazılmışdır. Xüsusən, onun Böyük Vətən müharibəsi mövzusunda yazdığı ballada tipli şeirlərində

akademik Bəkir Nəbiyevin yazdığı kimi, "Vətən uğrunda vuruşmaq əzmi, döyüşən gəncliyin nəfəsi, silah dostlarını vuruşlara təşviq etmək ehtirası güclüdür". Azərbaycan poeziyasında vəznli sərbəst şeirlərin yaradılmasında İslam Səfərlinin böyük xidmətləri vardır. Onun "Azərbaycanım", "Üçüncü hərb istəmirik" şeirləri ahəngi, qafiyələndirmə sisteminə görə sərbəst şeirdən çox heca vəzninə uyğundur.

İslam Səfərli yaradıcılığında Azərbaycanın görkəmli müğənniləri, bəstəkarları, ümumilikdə sənət adamları önəmli yer tutmuşdu. Böyük ədib Cəlil Məmmədquluzadəyə həsr etdiyi "Şərqin Şöhrəti" şeirində Naxçıvanda dünyaya göz açan, dövrünün dərd-qəmini içində çəkib, Molla Nəsrəddin jurnalı vasitəsilə üzə çıxardan ədibin canlı ölüləri, cəhalətli Şərq ellərini qəflət yuxusundan çıxartdığından söz açır. İti qələmi ilə millətinin keşiyində durduğunu, bəzən gülüb, bəzən ağladığını, sadə, şirin ləhcəsilə dilimizə şöhrət olduğunu poetik çalarlarla ifadə etmişdi:

Mirzə Cəlil! Mirzə Cəlil!
Sadiq qaldın öz əhdinə.
Ürəyinin hər sözünü
Verdin "Molla Nəsrəddinə"

İslam Səfərli şair dostu Mirmehdi Seyidzadəyə 1957-ci ildə həsr etdiyi "Əsrin son gününə birlikdə gedək" adlı şeirində yazır:

Bizə deyirlər ki, gözəl dostdurlar,
Şairim, onlara bircə sözüm var,

- Dünya belə olub əzəldən bəri,
  Təmizürəklilər daim dost olar!.

Bu şeirdə gözəl dostluqdan söhbət açılır. Elə şairlər var ki, gözəl şeirlər desələr də, bir insan kimi sevilmirlər. Lakin İslam Səfərlinin şair dostu Mirmehdi Seyidzadə həm bir insan kimi, həm də gözəl bir şair kimi sevilir.

Səməd Vurğunun xatirəsinə yazdığı "Dağlar" şeirində İslam Səfərli göstərir ki, o, şeirin ağsaçlı qartalıdır, əfsuslar olsun ki, sənətin zirvəsində doyunca süzmədi. Yurdunu dərindən sevən Vurğunu elin əlindən əcəl aldı. Şair Mil düzünü, Muğanı sevdi, sevdi qara gözlü gözəl ceyranı. Qısa ömür yaşamasına baxmayaraq, Azərbaycanı qarış-qarış gəzdi. Şeirin sonluğunda İslam Səfərli üzünü dağlara tutaraq mağarda saz tutan tellər vurğununa, bülbülünə mat qoyan güllər vurğunu Səməd Vurğunun vaxtsız ölümünə kədərlənir, yüz nədir, min il yaşayaydı deyir:

Mağarda saz tutan tellər vurğunu,
Bülbülü mat qoyan güllər vurğunu,
Səməd Vurğun kimi ellər vurğunu
Min il yaşayaydı, yüz nədi, dağlar!

İslam Səfərli "Ələsgər" poemasını aşıq sənətinin mahir ustadı Aşıq Ələsgərə həsr etmişdir. Poema 1959-1962-ci illərdə yazılmışdır. Bu poemada aşıqlar yetirən Göyçə mahalı, aşığın öz sazı və sözü ilə məclislər yaraşığı olduğu, onun yaşadığı acılı-şirinli günlər öz əksini tapmışdır. Bu

dünyaya çox aşıqlar gəlib-gedib, lakin Ələsgər sazı və sözü ölməzdir. Əsrlər keçəcək, Aşıq Ələsgər nə qədər ki, dünya durur yaşayacaq. Şair bu poemanı yazarkən bütün Göyçə mahalını qarış-qarış gəzmiş, aşığın şagirdləri, müasirləri ilə söhbət etmiş, məlumatları toplamışdır. Ona görə də "Ələsgər" poeması fərdi tərcüməyi-haldan kənara çıxan bütöv bir dövrü, onun ağlı-qaralı günlərini, buxovlanmış sevgisinin iztirablarını göstərən bir əsərdir. Şair həmin poemada yazır:

Yüz il dövran sürən Aşıq Ələsgər
Min-min məclislərə yaraşıq oldu.
Çoxları saz tutub gəlib-getdilər
Tək şair Ələsgər xas aşiq oldu.

Əsrinin ən məğrur dağlar qartalı
Əski bir dünyanı məzara gömdü.
Aşıqlar Vətəni Göyçə mahalı
Çiçəyi sayrışan gülzara döndü.

Əlində telli saz, əlində vüqar,
Ağ günlər eşqinə coşdu Ələsgər,
Dünyada necə ki, saz var, şeir var,
O da yaşayacaq dünyalar qədər!..

Şairin bəstəkar Fikrət Əmirova həsr etdiyi "Şirmayı dillər" şeirində ürəyi ellərə bağlı olan sənətkarın elin ürəyindən yazdığını bildirir. Onun musiqilərində suların zümzüməsini eşidir. Arazı belinə dolayan Vətən "eşitsin oğlunun könül səsini" – deyir. İslam Səfərli incə muğamların qanadında ümmanların üstündən uçmaq üçün insanları səsləyir. Bizim

el mahnımız, el təranəmiz hələ çox yerlərdə qanad çalacaq deyir. Şeirin sonunda şair yazır:

Çal, ey bəstəkarım! Qoy bayraqların
Duyan könüllərin belində gəzsin,
Sənin sənət eşqin, sənət ilqarın
Dünyanın yüzlərlə elində gəzsin.







## Viktorina

Oxucular arasında İslam Səfərlinin həyat və yaradıcılığı barəsində viktorina keçirmək daha maraqlı olar.Kitabxanaçı səhnəyə gəlir viktorina başlayır.

1) İslam Səfərlinin hansı şeirlərini tanıyırsız?
   **Cavab:** Vətənim var, Naxçıvan yadigarı, Dağlar, Həsrət nəğməsi.
2) İslam Səfərlinin hansı tamaşalarını bilirsiz?
   **Cavab:** "Göz həkimi", "Ana ürəyi", "Yol ayrıcı", "Xeyir və Şər", "Dədəgünəş əfsanəsi"
3) İslam Səfərli harda anadan olmuşdur?
   **Cavab:** Naxçıvan MSSR-in Babək rayonunun Şəkərabad kəndində
4) İslam Səfərli harda dəfn olunmuşdur?
   **Cavab:** 2-ci fəxri xiyabanda
5) İslam Səfərlinin neçə kitabı işıq üzü görüb?
   **Cavab:** 18 kitab
6) Şairin müəllifi olduğu hansı mahnılarını tanıyırsız?
   **Cavab:** "Bakı, sabahın xeyir", "Zərif gülüşlüm", "Bir könül sındırmışam", "Qonaq gəl bizə", "Bakılı qız", "Nə vaxta qaldı", "Ana", "Ay qaşı, gözü qara qız".
7) İslam Səfərli şeirlərini ən çox hansı mövzuda yazmışdır?
   **Cavab:** Vətən, Müharibə, Naxçıvan.

8) Şairin hansı kitablarının adını çəkə bilərsiz?
**Cavab:**Pıçıldaşın ləpələr, İslam Səfərlinin seçilmiş əsərləri.
9) Şeiri tamamlayın:
Müəllim.Bu adın mənası dərin.
Onun hər ürəkdə öz yeri vardır.
Odur ilhamçısı gənc nəsillərin.
...............................................

**Cavab:** Fikri,düşüncəsi bir ilk bahardır.
10) İslam Səfərlinin müharibə illərində qələmə aldığı şeirləri hansılardır?
**Cavab:** "Ordumuza ithaf", "Ədəbi gənclik", "Onüçlər", "Əmin ol ata!", "Qoşa söyüd", iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun əziz xatirəsinə həsr ediyi "Təzə çiçəklər", "Üçüncü hərb istəmirik" və s.

**İslam Səfərlinin "Seçilmiş Əsərləri"nin biblioqrafik icmalı**

Bu şeirlər şairin ürəyinin dərinliklərindən qopan duyğuları parlaq şəkildə əks etdirir. İslam Səfərlinin hər zamankı səmimi şeirlərində sözlər sanki adilikdən çıxır, poetik hüsn qazanır. Burada Xəzərin ləpələri pıçıldaşır. Burada Vətən də, onun təbiəti də tam bir poeziyadır, zərifdir və gözəldir. Odur ki, həmin sözlərə neçə-neçə mahnılar yazılıb və onların da bir çoxu əbədiyaşardır. 224 səhifədən ibarət olan kitab 2005-ci il də  Lider Nəşriyyat evində nəşr

olunmuşdur. Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuşdur. Kitabı tərtib edən Hidayət Səfərli, ön sözün müəllifi isə Vaqif Yusiflidir. Kitab 7 fəsildən ibarətdir.

**Sənə Qurban Canım, Azərbaycanım!** fəsili Sənə qurban canım Azərbaycanım!, Odlar vətəni, Vətənim var, Azərbaycanım, Bakı bir Bakıdır ki, Səhər, Qayğı şeirlərindən ibarətdir.

**Mənim Adi Günlərim** fəsili Mənim adi günlərim, Pərişan olduğum anlar, Baxışlar, Bahar ümidli nazın, Kim ki, ürəyinə arxalanmasa şeirləri aiddir.

**Xan Arazin Sahilində** fəsili isə Gəlmişəm, Naxçıvanım, Qızlar bulağı, Naxçıvan yadigarı, Görüş yeri, Gilan şəhəri haqqında ballada, Gəlin daş Qonağıyam, Qoşa kəklik, Batabat bulağı, Badamlı və s.

**Dilim Dillər Tacidir** fəsili Ana dilim, Ana səsi, Körpə vətəndaşa, Ömür yolları, Durna qatarı, Müəllim, Şəhriyarın düşüncələri, Mən kövrəlmişəm.

**Mahnıdır Yelkənim Əzəldən Mənim** fəsili Bakı, sabahın xeyir!, Bir könül sındırmışam, Dan ulduzu, bir də mən, Xəzər romansı, Qənd bala, nabat bala, Yol ayrıcında, Könül mahnısı, Bulud göydən lal keçər.

**Şərqin Şöhrəti** fəsili Sevib yaşatdı, Sabirim "1906-1956", Həsrət nəğməsi, Cəfərim mənim,

Şirmayı dilləri, Səslər zirvəsi, Dağ qartalı, Oxu, Rəşidim, oxu.

**Təbiətə, Gözəlliyə, Vətənə Vurğunam** fəsili Xəzərim, Bizim dağlarda, Səməni, İstisu, Abşeron, Bərdə, Mərəzə, Suraxanı, Ağ çay, Qara çay, Qubanın ağ alması şeirlərindən ibarətdir.

### Ədəbi-bədii gecə

Kitabxanada oxucular üçün İslam Səfərlidən bəhs edən ədəbi- bədii gecənin təşkil olunması məqsədəuyğundur. Tədbirin keçirildiyi zal İslam Səfərlinin şəkilləri ilə bəzədilir. Tədbir sözləri İslam Səfərliyə aid olan "Araz üstə şəhərim" mahnısı sədaları altında başlayır. İslam Səfərli ilə bağlı hazırlanmış slayd təqdim olunur. Slayd bitdikdən sonra aparıcılar səhnəyə daxil olurlar. https://www.youtube.com/watch?v=HWwzBD6EhXQ
https://www.youtube.com/watch?v=vOgNPgXX270

*I aparıcı:* Mən qartalam,

Qartal zirvələr gəzər.

Mən vüsalam,

Vüsal hicranı bəzər.

Mən bir ayam,

Aya ulduz yaraşar.

*II aparıcı:* Salam, dəyərli qonaqlar, İslam Səfərli sevərlər, şeirə vurğun oxucular, bu gözəl şeirli, nəğməli tədbirə xoş gəlmisiniz. Realizm şeirin canıdır. İslam Səfərli öz kitabında bu prinsipə əməl etməyə çalışmışdır.

Qəlbimdə şaxta var, çöldə bahardır,
Ayrılıq saçımda gümüşü qardır.
Həsrət baxışların nə intizardır,
Yenə yar məhləsi yarsız qalıbdır.
Mən onu yaşatdım sözdə, şeirdə,
Güman yox üzünü görməyə bir də.
Onun son ləpiri düşdüyü yerdə
İslam kimi etibarsız qalıbdır.

50-60-cı illərin poeziyasında İslam Səfərlinin bir şair kimi öz yeri, öz mevqeyi vardır. Onun yaradıcılığında baş mövzu, şübhəsiz ki, Azərbaycan idi. Bu şeirlərin hamısına xas olan bir cəhəti xüsusi vurğulamaq lazımdır - o da səmimiyyət idi. Şeirlərin birində o yazırdı:

"Bağrıma basmışam Azərbaycanı, Araz bir qolumdur - Kür bir qolumdur".

Sinən bir ağ gümüşdü, gümüşdü,
Gözüm hüsnünə düşdü, nə düşdü,
Sahilində işıqlar qızıldı,
Yel dəydi, göy köynəyin sızıldı,
Suların çin-çin oldu, Xəzərim,
Ləpən göyərçin oldu, Xəzərim.

*I aparıcı:* İslam Səfərli əsl vətəndaş idi, vətənpərvər, yurdunu sevən idi. Azərbaycanı canından da çox sevən şair Qarabağı Azərbaycanın tacı hesab edirdi:

Mənim də boş yerə sözüm olmayıb,
Qəlbinə dəymədim əsla bir kəsin.
Özgə torpağında gözüm olmayıb,
Ana torpağıma göz dikilməsin!
Əmr et! Keşiyində mətin dayanım,
Sənə nənəm qurban, Azərbaycanım!

O, cəmi 52 il yaşadı. Fevralda dünyaya gəldi, noyabrda - soyuq payız günlərinin birində dünyadan köçdü. Ancaq ömrün uzun və qısalığı əsas şərt deyil, elə 52 illik bir ömür də bir insanı yaddaşlarda yaşatmaq üçün kifayət edər. Amma bir nəsil öz köçünü sürsə də, gələn nəsillər həmin nəsli xatırlayır, onların gözəl ənənələrini davam etdirirlər. Yurdun hər bir guşəsində "İslam Səfərli" adı gələndə təbəssümlə yada salırlar onu. Azərbaycanın ən şirin ləhcəli sənətkarı Rəşid Behbudovun ifasında "Ana" mahnısını dinləyirik, o zaman bu mahnının müəllifi İslam Səfərlini də yad edəcəyik.

Saçının ağına, qarasına qurbanam,
Könlünün o həzin laylasına qurbanam.
Əziz ana.

Unudulmur analar, unudulmur Rəşid, unudulmur İslam Səfərli.!

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı İslam Səfərlidən bəhs edən ədəbiyyatların siyahısı**

**Əsərləri kitablarda**

***Latın qrafikası ilə***

Pıçıldaşın, ləpələr : Seçilmiş əsərləri. - Bakı: Renessans, 2013. - 570 s.

Seçilmiş əsərləri : Poeziya. - Bakı: Lider nəşriyyatı, 2005. - 223 s.

***Kiril qrafikası ilə***

Adsız zirvə : Şeirlər və poemalar. - Bakı: Yazıçı, 1986. - 231 s.

Ağ şanı, qara şanı : Şeirlər və poemalar. - Bakı: Gənclik, 1976. - 144 s.

Dan ulduzu, bir də mən... : Mahnılar, şeirlər və poemalar. - Bakı: Gənclik, 1974. - 131 s.

Əbədi beşik : Şeirlər və poemalar. - Bakı: Yazıçı, 1978. – 225 s.

Göz həkimi : Pyeslər. - Bakı: Yazıçı, 1980. - 175 s.

Qoşa söyüd : Şeirlər və poemalar. - Bakı: Azərnəşr, 1965. - 173 s.

Meşə yolu : Şeirlər və nəğmələr. - Bakı: Uşaqgəncnəşr, 1960. - 60 s.

Seçilmiş əsərləri : Şeirlər və poemalar. - Bakı: Azərnəşr, 1973. - 270 s.

Torpağın ətri : Şeirlər və poemalar. - Bakı: Gənclik, 1967. - 144 s.

**Əsərləri dövrü mətbuatda**

Ana dilim // Göy qurşağı. - 2008. - № 2. - S. 13.

Sənə qurban canım, Azərbaycanım! // Savalan. - 2013. - 8-10 oktyabr. - № 74. - S. 2.

Sənə qurban canım, Azərbaycanım! ; Zirvə yolu ; Qayğı və b. // Ədəbiyyat qəzeti. - 2013. - 16 avqust. - № 30. - S. 1, 5.

**Haqqında dövrü mətbuatda**

**Abbaslı T.** İslam Səfərli: Başdan-başa şeir-sənət, Vətən-təbiət sevgili // Mədəniyyət . - 2015. - 6 noyabr. - S. 12.

**Əliyeva S.** İslam Səfərli-90 // Ədəbiyyat qəzeti . - 2013. - 25 yanvar. - S. 8.

**Fərəcov S.** Nəğmə dolu poeziya: İslam Səfərli sözlərinə görə ən çox mahnı bəstələmiş şairlərdəndir // Mədəniyyət. - 2022. - 4 noyabr. - № 82. - S. 6.

**Həbibbəyli İ.** Romantik pafosdan lirizmə: İslam Səfərli - 90 // Azərbaycan. - 2013. - 7 mart. - № 52. - S. 6.

**Xəlilzadə F.** Bakı, sabahın xeyir!: İslam Səfərli-90 // Azərbaycan . - 2013. - 12 fevral. - S. 11.

**Qasımov Ə.** Görkəmli şairin dramaturji yaradıcılığı: İslam Səfərli – 90 // Xalq qəzeti. - 2013. - 30 iyun. - № 140. - S. 6.

**Məhərrəmova İ.** İslam Səfərli-85 // Ədəbiyyat qəzeti . - 2008. - 15 fevral . - S. 2.

**Səfərli H.** Qardaşımı xatırlarkən // Ədəbiyyat qəzeti . - 2008. - 8 fevral. - S. 4.

**Yunisli F.** Sözə doğma - musiqiyə həmdəm: İslam Səfərli – 90 // Mədəniyyət. - 2013. - 1 noyabr. - № 78. - S. 10.

**Yusifli V.** Nəğməkarşair: İslam Səfərli // Mədəni Həyat. - 2013. - № 4. - S. 76-78.

**Zümrüd.** İslam Səfərli – 90 // Səs . - 2013. - 12 fevral. - S. 12.

# İslam Səfərli zirvəsi

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**